**“Azərbaycan Respublikası Energetika Nazirliyinin korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2020-ci il üçün Tədbirlər Planı”nın təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI ENERGETİKA NAZİRİNİN ƏMRİ

Azərbaycan Respublikası Energetika Nazirliyinin 2020-ci il 7 aprel tarixli F-42 nömrəli Əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Energetika Nazirliyinin “Açıq hökumətin təşviqinə dair 2020–2022-ci illər üçün Milli Fəaliyyət Planı”nın icrası üzrə 2020-ci il üçün İş Planı”nın 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.5.4-cü yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. “Azərbaycan Respublikası Energetika Nazirliyinin korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2020-ci il üçün Tədbirlər Planı” (bundan sonra – Tədbirlər Planı) təsdiq edilsin (əlavə olunur).

2. Daxili nəzarət şöbəsi:

2.1. Tədbirlər Planının icrası barədə hesabatın dekabrın 30-dək Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim edilməsini təmin etsin;

2.2. növbəti il üçün Tədbirlər Planını dekabrın 15-dək hazırlayıb Energetika nazirinə təqdim etsin;

2.3. Tədbirlər Planında nəzərdə tutulan tapşırıqların vaxtında icrasına nəzarəti təmin etsin.

3. Nazirliyin aparatının struktur bölmələri və Enerji Məsələlərini Tənzimləmə Agentliyi:

3.1. öz fəaliyyətlərində Tədbirlər Planının müddəalarını rəhbər tutsunlar;

3.2. Tədbirlər Planında nəzərdə tutulan tədbirlərin icrası barədə illik hesabatı dekabrın 15-dək Daxili nəzarət şöbəsinə təqdim etsinlər.

4. Enerji Məsələlərini Tənzimləmə Agentliyi:

4.1. bir ay müddətində “Enerji Məsələlərini Tənzimləmə Agentliyinin korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2020-ci il üçün Tədbirlər Planı”nı təsdiq etsin və bu barədə məlumatı Energetika nazirinə təqdim etsin.

5. Ümumi şöbə bu əmrin surətinin nazirliyin aidiyyəti struktur bölmələrinə və Enerji Məsələlərini Tənzimləmə Agentliyinə çatdırılmasını təmin etsin.

6. Əmrin icrasına nəzarət Samir Vəliyevə həvalə edilsin.

**PƏRVİZ ŞAHBAZOV**
**Azərbaycan Respublikasının energetika naziri**

14 aprel 2020-ci il
№ F-44

Azərbaycan Respublikası Energetika Nazirliyinin
2020-ci il 14 aprel tarixli F-44 nömrəli
Əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Energetika Nazirliyinin korrupsiya risklərinin qiymətləndirilməsi və onların qarşısının alınması ilə bağlı 2020-ci il üçün Tədbirlər Planı**

| № | Tədbirin adı | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| **1.Ərizə və şikayətlərin baxılması işinin təkmilləşdirilməsi** | | | |
| 1.1. | Nazirliyin rəhbərləri tərəfindən mütəmadi olaraq vətəndaşların birbaşa, o cümlədən səyyar qəbulunun təşkili; | Nazirliyin rəhbərliyi və struktur bölmələrin rəhbərləri | Mütəmadi |
| 1.2. | Ərizə və şikayətlərin elektron qaydada qəbulu və rəsmi cavablandırılması işinin təkmilləşdirilməsi. | Nazirliyin struktur bölmələri | Mütəmadi |
| **2.Qanunvericilik aktlarının tələblərinin pozulması ilə bağlı müraciətlərin araşdırılması** | | | |
| 2.1. | İstehlakçılardan Nazirliyə yuxarı orqanlar vasitəsilə və ya bilavasitə daxil olmuş “Energetika haqqında”, “Elektroenergetika haqqında”, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanunlarının, “Elektrik enerjisindən istifadə Qaydaları”nın və “Qazdan istifadə Qaydaları”nın tələblərinin pozulması ilə bağlı müraciət, ərizə və şikayətlərin araşdırılması; | Nazirliyin struktur bölmələri və Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Mütəmadi |
| 2.2. | Araşdırma zamanı korrupsiya və digər ciddi pozuntu halları müəyyən olunduğu təqdirdə müvafiq qaydada tədbir görülməsi üçün nazirliyin rəhbərliyinə məlumatların verilməsi. | Daxili nəzarət şöbəsi | Mütəmadi |
| **3. Etik davranış qaydalarının təkmilləşdirilməsi** | | | |
| 3.1. | Dövlət qulluqçuları üçün etik davranış məsələləri üzrə mütəmadi tədris kursları və treninqlərin təşkil edilməsi; | Dövlət qulluğu və kadrlar şöbəsi | Noyabr |
| 3.2. | Etik davranış məsələləri üzrə illik hesabatların hazırlanması (hesabatlarda aparılmış maarifləndirmə işləri, etik davranış qaydalarının pozulması halları və tətbiq edilmiş intizam tənbehi tədbirləri göstərilməklə), Korrupsiyaya qarşı mübarizə | Daxili nəzarət şöbəsi, Dövlət qulluğu və kadrlar şöbəsi | Noyabr |

| | | | |
|---|---|---|---|
| | üzrə Komissiyaya təqdim edilməsi və ictimaiyyətə açıqlanması; | | |
| 3.3. | Etik davranış qaydalarının pozulması ilə bağlı daxil olmuş şikayətlərin effektiv araşdırılması mexanizminin təkmilləşdirilməsi; | Daxili nəzarət şöbəsi, Dövlət qulluğu və kadrlar şöbəsi, Hüquq şöbəsi | Noyabr |
| 3.4. | Nazirliyin internet saytında etik məsələlər üzrə xüsusi bölmənin yaradılması (qeyri-etik davranış barədə elektron şikayət etmə mexanizmi, etik qaydalar, etik hesabatlar və s.). | Elektron idarəetmə sektoru, Daxili nəzarət şöbəsi, Dövlət qulluğu və kadrlar şöbəsi, Hüquq şöbəsi | Noyabr |
| **4. Sahibkarlıq sahəsində aparılan yoxlamaların təkmilləşdirilməsi** | | | |
| 4.1. | Sahibkarlıq sahəsində aparılan yoxlamalarla bağlı risk qiymətləndirilməsi sisteminin yaradılması və yoxlamaların risklərin idarə edilməsi əsasında təyin edilməsi. | İqtisadiyyat şöbəsi, Daxili nəzarət şöbəsi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Oktyabr |
| **5. Dövlət satınalmalarının təkmilləşdirilməsi və şəffaflığın artırılması** | | | |
| 5.1. | Elektron dövlət satınalmalarının tətbiq edilməsi; | Maliyyə və təminat şöbəsi, İqtisadiyyat şöbəsi, Elektron idarəetmə sektoru | Mütəmadi |
| 5.2. | Dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqlarını qorumaq məqsədi ilə şikayətlərə təxirə salınmadan baxılması üçün müvafiq tədbirlər görülməsi; | Maliyyə və təminat şöbəsi, İqtisadiyyat şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi, Neft-qaz şöbəsi, Daxili nəzarət şöbəsi, Hüquq şöbəsi | Mütəmadi |
| 5.3. | Dövlət satınalmalarında aşkar edilən korrupsiya halları barədə hüquq mühafizə orqanlarının məlumatlandırılması; | Daxili nəzarət şöbəsi, Hüquq şöbəsi, Maliyyə və təminat şöbəsi | Mütəmadi |
| 5.4. | Dövlət satınalmalarının həyata keçirilməsi zamanı ehtimal olunan qiymətlərin müəyyən edilməsi metodologiyasının hazırlanması; | İqtisadiyyat şöbəsi, Maliyyə və təminat şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi, Neft-qaz şöbəsi | Mütəmadi |
| 5.5. | Növbəti il üçün satınalma planlarının hazırlanaraq İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin internet səhifəsində yerləşdirilməsi; | Maliyyə və təminat şöbəsi, İqtisadiyyat şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi, Neft-qaz şöbəsi, | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| | | Elektron idarəetmə sektoru | |
| 5.6. | Dövlət satınalma prosedurları nəticəsində bağlanan satınalma müqavilələrinin vahid reyestrinin yaradılması və həmin reyestrin İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin internet səhifəsində yerləşdirilməsi. | Maliyyə və təminat şöbəsi, İqtisadiyyat şöbəsi, Elektroenergetika və enerji səmərəliliyi şöbəsi, Neft-qaz şöbəsi, Elektron idarəetmə sektoru | Mütəmadi |
| **6. İcazələrin verilməsi işinin təkmilləşdirilməsi** | | | |
| 6.1. | İcazələrin verilməsi ilə əlaqədar elektron xidmətlərin təşkil olunması; | İqtisadiyyat şöbəsi, Elektron idarəetmə sektoru | Oktyabr |
| 6.2 | "Lisenziyalar və icazələr portalı"nın (lisenziya.gov.az) fəaliyyətinin təmin və təşviq edilməsi, yeni qəbul olunmuş icazə xarakterli sənədlər barədə məlumatların və qanunvericilik aktlarının layihələrinin portala daxil edilməsi. | İqtisadiyyat şöbəsi, Elektron idarəetmə sektoru | Oktyabr |
| **7. Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlıq** | | | |
| 7.1. | Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyət, müxtəlif beynəlxalq proqram və layihələrdə iştirak, habelə bu sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlarla və xarici ölkələrin müvafiq orqanları ilə qarşılıqlı əməkdaşlığın davam etdirilməsi. | Beynəlxalq əməkdaşlıq şöbəsi və nazirliyin aidiyyəti struktur bölmələri | Mütəmadi |
| **8. Korrupsiyaya qarşı mübarizə ilə bağlı maarifləndirmə** | | | |
| 8.1. | Nazirlik tərəfindən öz fəaliyyətində korrupsiyaya qarşı mübarizə ilə əlaqədar televiziya və radio proqramlarında xüsusi verilişlərin və debatların təşkil edilməsi; | Mətbuat katibi, Mətbuat sektoru, nazirliyin aidiyyəti struktur bölmələri, Enerji Məsələlərini Tənzimləmə Agentliyi | Mütəmadi |
| 8.2. | Nazirliyə ictimai etimadın artırılması məqsədi ilə nazirliyin fəaliyyəti ilə bağlı təbliğat işinin təşkil edilməsi; | Mətbuat katibi, Mətbuat sektoru və nazirliyin aidiyyəti struktur bölmələri | Mütəmadi |

| | | | |
|---|---|---|---|
| 8.3. | Korrupsiyaya qarşı mübarizə sahəsində bukletlərin, yaddaş kitabçalarının və digər maarifləndirici materialların nəşri və əhali arasında paylanmasının təşkil edilməsi. | Mətbuat katibi, Mətbuat sektoru, Elektron idarəetmə sektoru və nazirliyin aidiyyəti struktur bölmələri | Mütəmadi |
| 8.4. | Maraqların toqquşmasının qarşısının alınması üzrə treninqlərin təşkili. | Dövlət qulluğu və kadrlar şöbəsi | Dekabr |